*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 iyun 2018-ci il № 44 (2260) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Biz ardıcıl siyasət aparmaqla ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik

*İyunun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə təşkil edilən iftar mərasimində iştirak edib. Mərasimdə çıxış edən Prezident İlham Əliyev müqəddəs Ramazan ayında belə görüşlərin artıq gözəl ənənəyə çevrildiyini bildirib.*



Azərbaycanda din-dövlət münasibətlərinin çox yüksək səviyyədə olduğunu deyən Prezident İlham Əliyev ölkəmizdə bütün xalqların, dinlərin nümayəndələrinin rahat, dostluq-qardaşlıq şəraitində yaşadığını bildirib və bunun dövlətimizin gücü olduğunu qeyd edib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev problemin ədalətli, beynəlxalq hüquq normaları və respublikamızın ərazi bütövlüyü çərçivəsində həllini tapacağına şübhə etmədiyini bildirib. Ölkə başçısı bu istiqamətdə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətini yüksək qiymətləndirib: "İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda dini məsələlərin həllinə çox yüksək qiymət verir. İslam Əməkdaşlıq Təşkilatı ölkəmizi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı daim dəstəkləyir. Bir çox qətnamələr qəbul edilmişdir. Bu qətnamələrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətlər, real vəziyyət və ədalətli mövqe nümayiş etdirilir. Azərbaycanın haqq səsi dəstəklənir və bu dəstəyə görə biz İslam Əməkdaşlıq Təşkilatına minnətdarıq".

Dağlıq Qarabağın tarixən Azərbaycan xalqına məxsus olduğunu qeyd edən ölkə Prezidenti münaqişə ilə bağlı həqiqətlərin dünya dövlətlərinə çatdırıldığını da vurğulayıb: "Dağlıq Qarabağ bizim tarixi torpağımızdır, biz bunu, bu həqiqətləri bütün dünyaya çatdırırıq. Bir çox elmi əsərlər, kitablar nəşr edilib, bir çox tədbirlər keçirilib. Biz tarixi həqiqətləri çatdırmalıyıq və çatdırırıq. Dağlıq Qarabağın tarixən Azərbaycan xalqına məxsus olması artıq heç kimdə şübhə doğurmur. Hüquqi nöqteyi-nəzərdən Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Heç bir ölkə Dağlıq Qarabağda mövcud olan kriminal, qondarma rejimi tanımır və əminəm ki, tanımayacaq. Bu amillər, həm tarixi faktlar, həm beynəlxalq hüququn normaları, beynəlxalq təşkilatların qərar və qətnamələri nəinki bizim mövqeyimizi gücləndirir, eyni zamanda, münaqişənin həlli üçün əsas yaradır, hüquqi baza yaradır və biz yorulmaz fəaliyyət nəticəsində buna nail olmuşuq. Əminəm ki, biz ardıcıl siyasət aparmaqla istədiyimizə nail olacağıq, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Buna mənim şübhəm yoxdur. Həm tarixi həqiqətlər, hüquqi baza, BMT Təhlükəsizlik Şurasının qətnamələri, digər təşkilatların qərar və qətnamələri, bizim iqtisadi gücümüz, hərbi gücümüz və bölgədə mövcud olan real vəziyyət bunu deməyə əsas verir".

Prezident İlham Əliyev Ermənistanın əvvəlki hakimiyyətinin yarıtmaz və cinayətkar fəaliyyəti nəticəsində ölkələrini acınacaqlı vəziyyətə sürüklədiyini qeyd edib və ümidvar olduğunu bildirib ki, yeni rəhbərlik əvvəlki hakimiyyətin səhvlərini təkrarlamayacaq və münaqişənin tezliklə həll olunması üçün ciddi işlər görəcək: "Mənim illər ərzində dediyim sözləri indi erməni xalqı deyir. Mən dünyanın ən ali kürsüsündən - BMT kürsüsündən Ermənistanın əvvəlki kriminal rejimini ifşa etmişəm. Onları öz adları ilə çağırmışam. Onları Xocalı soyqırımında ittiham etmişəm, hərbi cinayətlərdə ittiham etmişəm. Ermənistanın əvvəlki hakimiyyətini qaniçən, kriminal, quldur rejim adlandırmışam. Bütün bunlar həqiqətdir. Mən həqiqəti demişəm, indi bu həqiqəti erməni xalqı deyir. Nəhayət, indi erməni xalqı anlayıb ki, onlara 20 il ərzində kriminal xunta rejimi rəhbərlik edib. O kriminal xunta rejimi ki, ancaq öz maraqlarını güdür, o rejim ki, onun yarıtmaz və cinayətkar fəaliyyəti nəticəsində Ermənistan bu acınacaqlı vəziyyətə düşüb. Mən dəfələrlə demişdim ki, Ermənistanda iqtisadi böhran, demoqrafik böhran yaşanır, ölkə boşalır, hər il on minlərlə insan o ölkəni həmişəlik tərk edir, Ermənistanda inkişaf üçün heç bir perspektiv yoxdur. Demişəm ki, Azərbaycan Ermənistanı dalana çevirib, iqtisadi, siyasi, nəqliyyat dalanına çevirib. Nəyə görə? Ona görə ki, Ermənistan torpaqlarımızı işğal edibdir. İndi bütün bunları erməni xalqı deyib və deyir. Bu, bir daha onu göstərir ki, bu münaqişədə Azərbaycan öz istədiyinə nail olacaq, həqiqəti, ədaləti bərpa edəcək. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi əvvəlki hakimiyyətin səhvlərini təkrarlamayacaq və münaqişənin tezliklə həll olunması üçün ciddi işlər görəcək və imitasiya naminə yox, real danışıqlar prosesinə start veriləcək. Beləliklə, məsələ öz həllini tapa bilər və Qafqaza sülh gələ bilər. Biz bunu istəyirik, biz münaqişənin həllini tələb edirik, bizim buna haqqımız çatır. Ümid edirik ki, bu məsələ danışıqlar yolu ilə tezliklə öz həllini tapa bilər".

**"Azərbaycan Ordusu"**

## Azərbaycanın Müdafiə naziri NATO-nun toplantısında iştirak edib

İyunun 8-də Brüsseldə NATO-nun Əfqanıstandakı "Qətiyyətli dəstək" missiyasına töhfə verən dövlətlərin Müdafiə nazirləri səviyyəsində toplantısı keçirilib.

Azərbaycanı bu toplantıda Müdafiə naziri general-polkovnik Zakir Həsənov təmsil edib.

Toplantıda NATO-nun Əfqanıstandakı "Qətiyyətli dəstək" missiyasının gedişi və əməliyyat şəraitindəki dəyişikliklərlə bağlı müzakirələr aparılıb.

## Bakıda Azərbaycan və Bolqarıstan Müdafiə nazirliklərinin təhsil üzrə ekspertləri arasında işçi görüşü keçirilib

Bakıda Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Bolqarıstan Respublikasının Müdafiə Nazirliyi arasında ikitərəfli əməkdaşlıq planına əsasən, hər iki ölkənin Müdafiə nazirliklərinin təhsil üzrə ekspertlərin işçi görüşü keçirilib.

Görüşdə NATO-nun STANAG testlərinin tərtibatına və qarşılıqlı sınaqdan keçirilməsinə dair fikir mübadiləsi aparılıb.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 8-də Tərtər rayonu ərazisindəki Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndə Anjey Kaspşik və onun səhra köməkçisi Mixail Olaru keçiriblər.

# Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin "N" hərbi hissəsi üçün inşa edilmiş şəhərciklə tanış olub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 5-də Müdafiə Nazirliyinin "N" hərbi hissəsi üçün inşa edilmiş hərbi şəhərcikdə yaradılan şəraitlə tanış olub.*



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov dövlətimizin başçısına raport verdi.

Məlumat verildi ki, bu hərbi şəhərciyin inşasına 2015-ci ilin yanvarında başlanılıb və 2017-ci ilin fevralında tikinti işləri başa çatdırılıb. Hərbi şəhərcikdə yaşayış və qeyri-yaşayış binaları, hərbi texnikanın saxlanması üçün park inşa edilib. Ərazidə qərargah binası tikilib. Binadakı 28 xidməti otaqda hərbi qulluqçular üçün zəruri şərait yaradılıb. Otaqların hamısı lazımi avadanlıqla təchiz olunub. Hərbi şəhərcikdə 120 nəfərlik 8 və 150 nəfərlik 1 əsgər yataqxanası tikilib. Yataqxanalarda əsgərlərin rahatlığı üçün hərtərəfli şərait yaradılıb.

Burada 14 mənzilli yaşayış binası da inşa olunub. Əsgər




yeməkxanası da yüksək səviyyədə qurulub. Burada hərbi qulluqçuların qidalanmaları üçün geniş imkanlar var. Hərbi şəhərcikdə çörəkbişirmə məntəqəsi də fəaliyyət göstərir. Hərbi qulluqçuların istirahəti ilə yanaşı, onların asudə vaxtlarının səmərəli təşkili üçün şəhərcikdə bütün tədbirlər görülüb. Ərazidə inşa olunan trenajor binasında atış və sürücülük məşqlərinin keçirilməsi üçün 4 tank və 6 piyada döyüş maşını təlim-məşq qurğusu quraşdırılıb.

Hərbi şəhərcikdə klub binası da var. Burada ölkəmizin, eyni zamanda, hərbi hissənin həyatında baş verən əlamətdar günləri qeyd etmək mümkün olacaq. Şəhərcikdə yaradılan hamam-camaşırxana-qazanxana kompleksi də müasirliyi ilə seçilir. Ərazidə tibb məntəqəsi tikilib. Müasir avadanlıqla təchiz olunan bu məntəqə 56 çarpayılıqdır. Şəhərcikdə ərzaq və əşya anbarları, transformator yarımstansiyası, nəzarət-buraxılış məntəqəsi, su nasos stansiyası, 500 kubmetrlik 2 su anbarı quraşdırılıb. Hərbi şəhərcikdə genişmiqyaslı abadlıq və yaşıllaşdırma işləri görülüb.

Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi hissədəki texnikalara baxdı.

Bildirildi ki, 2S31 "Vena" özüyeriyən artilleriya qurğusu PDM-3 döyüş maşınının bazasında olub, düşmənin atış vasitələrini, tank əleyhinə vasitələri susdurmaq və məhv etmək, düşmənin səngərdəki canlı qüvvəsini, yüngül zirehli texnikasını və idarəetmə məntəqələrini məhv etmək, artilleriya və minaatan batareyalarını, raketburaxma qurğularını susdurmaq üçün təyin edilib.

Divizion komandirinin 1V15 idarəetmə kompleksi yüngül zirehli MT-L bu maşını bazasında divizion komandirinin hərəkətli komanda-müşahidə məntəqəsi olub, gündüz və gecə vaxtı ərazinin, düşmənin kəşfiyyatını aparmaq, öz yerini və hədəflərin koordinatlarını müəyyən etmək, sınaq atışına xidmət göstərmək və atəşə düzəlişlər vermək, yuxarı rəislər, ümumqoşun bölmələrinin və digər bölmələrin komandirləri ilə rabitə əlaqəsi saxlamaq üçün nəzərdə tutulub.

Piyadanın döyüş maşını olan PDM-3 piyada və motoatıcı hissələri atəşlə təmin etmək, onların mobil fəaliyyəti və qorunması üçün nəzərdə tutulub. Başqa qoşun növləri üçün də modernləşdirilmiş nümunələri olan bu maşın şəxsi heyəti çevrəvari olaraq qəlpə və atıcılıq silahından, üz hissəsi isə 30 millimetrlik mərmilərdən qoruyur.

PDM-2 maşını da piyada və motoatıcı hissələri atəşlə təmin etmək, onların mobil fəaliyyəti və qorunması üçün nəzərdə tutulub. Onun silahlanmasına 30 millimetrlik 2A42 avtomatik topu, bir 7,62 millimetrlik PKTM pulemyotu və 9M113 tank əleyhinə idarəolunan raket qurğusu daxildir.

Piyadanın döyüş maşını olan BTR 82-A motoatıcı bölmələri atəşlə təmin etmək, onların mobil fəaliyyəti və qorunması üçün nəzərdə tutulub. Silahlandırmada olan bu zirehli təkərli transportyor motoatıcı bölmələrin şəxsi heyətinin manevr və marş zamanı daşınmasını, su manelərinin dəf edilməsini, heyət və desantın atıcı silahlardan, mina və mərmi qəlpələrindən qorumaq, o cümlədən düşmənin canlı qüvvəsini, yüngül zirehli texnikasını məhv etmək üçün təyin olunub.

SANDCAT mobil radio idarəetmə məntəqəsi əməliyyat idarəetmə sistemlərində tətbiq olunmaqla hərəkətdə və dayanacaqda qərargah zabitlərinin idarəetməsini təmin etmək üçündür. SANDCAT mobil radio qovşağı analoq, rəqəmsal açıq, məxfi, sinxron, tezlik dəyişən, həmçinin bütün növ məlumatların kompüterlə ötürülməsi və qəbul edilməsi üçün nəzərdə tutulub.

Spike-LR tank əleyhinə idarəolunan raket kompleksi sürətli manevr edərək istənilən hava şəraitində düşmənin hərəkətsiz və hərəkətdə olan tank və zirehli texnikalarını məhv etmək üçün təyin edilib. Avtomobilin üzərindəki raketburaxma qurğusu universal, idarəedilən, gecə və gündüz döyüş fəaliyyətlərinin aparılması üçün nəzərdə tutulan silah sistemidir. Bu qurğu qabaqcıl texnologiyalı atəşə nəzarət sistemindən ibarət olub uzaq məsafələrə dəqiq atəş açır və şəxsi heyətin qorunmasını təmin edir.

TUFAN-1 radiomanеə stansiyası axtarış aparmaq, texniki analiz, pelenqləmə, yerüstü və hava radiorabitə vasitələrinin, radioşüalanma mənbələrinin yerinin təyin edilməsi, fiksə olunmuş tezliklərin və tezliyin proqramla yenidən qurulması rejimində işləyən radiorabitə xəttinin susdurulması üçün nəzərdə tutulub.

Ali Baş Komandana "ORBİTER-3B" Pilotsuz Uçuş Aparatı təqdim olundu.

Bildirildi ki, cəmi 28 kiloqram çəkisi olan bu aparat 5486 metr maksimal hündürlükdə döyüş əməliyyatlarında tətbiq etmək, hava kəşfiyyatını aparmaq, eləcə də istənilən şəraitdə hədəfgöstərmə və artilleriya atəşinə




xidmət etmək üçün təyin edilib.

SPİKE-ER tank əleyhinə idarəolunan raket kompleksi istənilən hava şəraitində düşmənin hərəkətsiz və hərəkətdə olan tank və zirehli texnikalarını məhv etmək üçün nəzərdə tutulub. Bu kompleksla yüngül çölmüdafiə qurğularına səmərəli atəş açmaq, kəşfiyyat xarakterli fəaliyyətlər yerinə yetirmək və yerüstü müşahidə məntəqələrindən müşahidə edilməyən hədəfləri məhv etmək mümkündür.

Bundan əlavə, silahlanmaya yeni qəbul edilən texnikalar arasında zirehlendirilmiş daşıyıcıdartıcı maşın olan və döyüş sahəsində texnikaların təxliyəsini və onların üzərində təmir işlərinin aparılmasını nəzərdə tutan BREML-L, düşmənin yüksəkliklərdə, yamaclarda, təpələrin arxasında yerləşən canlı qüvvəsini, döyüş texnikasını məhv edən və motoatıcı bölmələrin atəş dəstəyini təmin edən 120 millimetrlik 7E2 SANDCAT-SPEAR minaatanı, gecə, gündüz və hər cür hava şəraitində hədəflərin uzaq məsafədən təyin olunması, öyrənilməsi, koordinatlarının müəyyənləşdirilməsi üçün nəzərdə tutulan "Bayquşgöz" və "Şahingöz" elektrooptik müşahidə sistemi, hərbi obyektləri, dövlət orqanlarının binalarını, yüksək səlahiyyətli şəxslərin yaşayış yerlərini, tədbirlər üçün nəzərdə tutulan əraziləri və nəzarət-buraxılış məntəqələrini pilotsuz uçuş aparatlarına qarşı siqnalların aktiv qarışdırılması yolu ilə qoruyan pilotsuz uçuş aparatları əleyhinə sistem - İHASAVAR, istənilən tipdə pilotsuz uçuş aparatlarının aşkarlanması və onlara verilən tapşırıqların yerinə yetirilməsinin qarşısını almaq üçün təyin olunan TUFAN-2M, maddi vəsaitlərə və resurslara qənaət etməklə şəxsi heyətin praktiki atış vərdişlərinin təkmilləşdirilməsi, minaatanın hədəfə vaxtında və dəqiq tuşlama bacarıqlarının artırılması üçün təyin olunan 60, 82 və 120 millimetrlik təlim atəş məşq qurğuları da var.

Bütün bunlar göstərir ki, son dövrlərdə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuz müasir silahsursat, hərbi texnika ilə təmin edilir, yeni hərbi şəhərciklər inşa edilir, mövcud olanları isə ən yüksək səviyyədə yenidən qurulur. Bütün bu tədbirlər Azərbaycan dövlətinin hərbi sahənin inkişafına yüksək diqqət və qayğı ilə yanaşmasının aydın təzahürüdür.

# Azərbaycanın Müdafiə naziri MDB Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edib



Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərinin Müdafiə Nazirləri Şurasının iclasında iştirak etmək üçün Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyası Tıva Respublikasının Kızıl şəhərinə gəlib.

Tədbirdə iştirak edən Müdafiə nazirləri Tıvanın Aldan-Maadır milli muzeyini, "Asiyanın mərkəzi" adlı memarlıq kompleksini ziyarət edərək müxtəlif ekspozisiyalarla tanış olublar.

* * *

İyunun 6-da Rusiya Federasiyası Tıva Respublikasının Kızıl şəhərində Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərinin Müdafiə Nazirləri Şurasının iclası keçirilib. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov iclasda iştirak edib.



İclasdan əvvəl MDB iştirakçı dövlətlərin Müdafiə nazirləri Qələbə meydanına gələrək Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılan abidəni ziyarət edib, önünə əklil qoyublar. Sonra qonaqlar Rusiya Federasiyası Müdafiə Nazirliyinin Kızıl şəhərindəki Prezident Kadet Məktəbinin tədris bazası ilə tanış olub, ağaclar əkib və "Aldın-Bulak" etnomədəni kompleksini ziyarət ediblər.

İclasda cari hərbi əməkdaşlıq və qarşıda duran məsələlər müzakirə olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Ön xətdən reportaj*

# Torpaqlarımızı işğaldan azad edəcəyik!

Növbəti ezamiyyət zamanı hərbi hissənin ərazisinə daxil olarkən əsgərlərin tam təchizatlı cəld və çevik şəkildə kazarmaları tərk etdiyinin və maşınlara mindiklərinin şahidi oldum. Bir anlıq aprel döyüşlərini xatırladım. Düşündüm, bəlkə düşmən hansısa təxribata əl atıb və igidlərimiz ona cavab verməyə gedir. Kapitan Orxan Nəsirov bildirdi ki, gördüklərimiz təlim-məşq məqsədi daşıyır: "Mütəmadi olaraq şəxsi heyətə dərslər keçirilməklə yanaşı, onların praktiki vərdişlərinin artırılmasına da diqqət yetiririk. Bu gün şəxsi heyət yaşayış məntəqəsini tez bir zamanda tərk edərək, toplanma rayonuna hərəkəti icra edirlər. Əsgərlərimiz bu cür təlim-məşq prosesində daha fəal olurlar. Hər biri üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir. Əgər düşmən yenə təxribata əl atarsa, əmin olsun ki, bu səfər onu daha böyük bir məğlubiyyət gözləyir. Hamımız səbirsizliklə Ali Baş Komandanımızın döyüş əmrini gözləyirik."

Şəxsi heyətin dərs prosesini izlədikcə Mustafa Kamal Atatürkün "Ordunun vəzifəsi Vətəni işğal etmək istəyən düşmənə qarşı ayağa qalxmaqdır" kəlamını xatırlayıram. Ordumuz iki il bundan öncə ayağa qalxaraq düşmənə öz gücünü göstərdi. Ermənistan ordusuna tezliklə sülh yolu ilə torpaqlarımızı geri qaytarmağın onlar üçün yaxşı olacağının mesajını verdi. İndi qərar onlarındır - ya sakitcə Qarabağdan çıxıb gedəcəklər, ya da Azərbaycan əsgərinin qəzəbinə tuş gələcəklər.

Dərs prosesini izlədikdən sonra zabit Orxan Nəsirovla birgə ön xəttə yola düşürük. Yaz olmasına baxmayaraq hava istidi. Amma narahat deyilik. Arzuladığımız mövqeyə tələsirik. İsti hava şəraitinə məhəl qoymadan böyük məsuliyyətlə, sevgililərə Vətənə xidmət edən igidlərlə kəlmələşməyə tələsirik.



Mövqedə bizi gizir Rəşadət Məmmədli qarşılayır. Tanışlığımız əsnasında öyrənirəm ki, Rəşadət müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra gizir kimi xidmətə başlayıb. "Əsgər kimi ön xətdə baş atıcı vəzifəsində xidmət etmişəm. Əsgərliyi bitirməyimə az qalmış gizirlik kursuna sənədlərimi təqdim etdim. Təbii ki, anamın qərarımı dəstəkləməsi məni daha da həvəsləndirmişdi. Nəhayət, 2016-cı ilin oktyabrında kursu bitirib xidmətə yollandım. Ən qürurverici məqam odur ki, ön mövqedəyəm və bu cür Vətən övladları ilə çiyin-çiyinə dayanmışam."

- Bu peşəni seçməkdə sənə daha çox kim dəstək olub?

- Əsgər olarkən taqım komandirim var idi - leytenant Xəzər Cəfərov. Bizimlə boş vaxtlarda vətənpərvərlik mövzusunda söhbətlər aparar, qarşımızda dayanan düşmənin tarix boyu bizə qarşı etdiyi xainliklərdən söz açardı. Onun söhbətlərinin bəhrəsidir ki, bu gün mənimlə yanaşı, üç əsgər yoldaşım da ömrünü Vətənlə yaşayır. Biz də tabeçiliyimizdə olan şəxsi heyətlə söhbətlər aparır, onların nizam-intizamlı olmaları üçün əlimizdən gələni əsirgəmirik. Düşmən atəşkəsi pozsa ona layiqli cavab verməyə hazırıq.

Manqa komandiri kiçik çavuş Ramin Sadıqov hərbi xidmətini Hərbi Hava Qüvvələrinin hərbi hissələrindən birində başa vurub. Ramin aprel döyüşlərindən sonra ordu sıralarına yenidən qayıtmağı vətəndaşlıq borcu olduğunu bildirdi. "Döyüşlər zamanı cəbhədəki vəziyyət barədə məlumatları televiziyadan, kütləvi informasiya vasitələrindən alırdım. Həmin ərəfədə kənddəki dostlarımla birgə hərbi komissarlığa gələrək döyüşlərə qatılmaq istədiyimizi bildirdik. Düzdür, ordumuzun gücünə bələd idik. Amma yenə də döyüşdə iştirak etmək, düşmənə bir mərmi də biz atmaq istəyirdik. Döyüşlər yekunlaşdıqdan, ordumuz qələbə qazandıqdan sonra sənədlərimi toplayıb ordu sıralarına qayıtdım. Bunu özümə bir vətəndaşlıq borcu bilirdim. Bu gün ön xətdə xidmət etməyimlə fəxr edirəm. Hər an döyüşlərə atılmağa, zəfər bayrağını digər işğal altında olan torpaqlarımızda da dalğalandırmağa hazıram."

Səngərdə dayanan əsgərlərlə də həmsöhbət olduq. Əsgər Ruslan Əzimov hər axşam qarşıda yanan işıqları gördükcə kövrəldiyini, tezliklə oradakı evlərin işıqlarını Azərbaycan əsgərinin yandırmasını arzuladı. "Hər axşam növbəyə çıxıb qarşı tərəfi müşahidə edəndə kövrəlirəm. Axı o evlərdə biz yaşamalıyıq, işıqları özümüz yandırmalıyıq. Hər dəfə bu mənzərəni gördükcə düşmənə nifrətim daha da artır. Tezliklə döyüşlərin başlamasını, düşməndən bütün bunların qisasını almaq istəyirəm. Bilirəm ki, orduda xidmət edən hər bir əsgər yoldaşımın da arzusu bundan ibarətdir."

Müşahidə aparan digər əsgər Sultan Qurbanov arzusunun reallaşması üçün yenidən orduya qayıdacağını bildirdi. "Barıt qoxulu səngərlərdə xidmət etməkdən qürur duyuram. Əslində, səngərlərdən barıt qoxusundan çox cənnət qoxusunun gəldiyini hiss edirəm. Çünki bu səngərlərdə qəhrəman oğullarımız şəhid olub. Şəhidlik ən uca zirvədir və şəhidlərin son məkanı cənnətdir. Bu yerlərdə mən onların hamısının cənnət qoxusunu duyuram. Özümə söz vermişəm ki, müddətli həqiqi hərbi xidmətimi başa vuran kimi yenidən ordu sıralarına qayıdıb, Vətən torpaqlarının keşiyində dayanacağam."

- Bu yerlərdə barıt qoxusunu aprel döyüşlərində daha çox hiss etdik, - deyə zabit Orxan Nəsirov söhbətimizə qoşuldu. - Döyüşlər zamanı atılan mərmilərin səsi də insanı vahiməyə salırdı. Ancaq bölmələrimizin şəxsi heyəti qorxmurdu. Biz sadəcə arxada dayanan dinc sakinləri düşünürdük. İstəmirdik onlar qorxu içində yaşasınlar. Ona görə də düşmənə təkcə atıcı silahlardan yox, artilleriyadan da zərbələr endirirdik. Sonda isə qalib gəldik. Həm ordumuz qələbə qazandı, həm də xalqımızın ordusuna olan inamı daha da artdı.

**(Ardı 4-cü səhifədə)**

15 İyun Milli Qurtuluş Günüdür

# Xalqın müqəddəratının həll olunduğu gün

*Azərbaycan xalqının tarixində xüsusi əhəmiyyətə malik olan, onun gələcək həyatını müəyyən edən, böyük başlanğıcın əsasını qoyan bir çox əlamətdar günlər var. Belə əlamətdar günlərdən biri də dövlətçilik tariximizdə mühüm ictimai-siyasi əhəmiyyət daşıyan 15 İyun Milli Qurtuluş Günüdür. Bu tarix ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.*



Müxtəlif ölkələrə və mədəniyyətlərə nəzər yetirərkən görürük ki, azadlıq və müstəqilliyi qorumaq, davam etdirmək ən azı onu qazanmaq qədər böyük məsuliyyət və təcrübə tələb edir. 1991-ci ildə dövlət suverenliyini yenidən bərpa edən Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində bir sıra ictimai, siyasi və iqtisadi problemlərlə qarşılaşdı, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanması ilə çətin dövrlərini yaşadı.

Ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də də Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

Xalqın təkidli tələbi ilə Naxçıvandan Bakıya gələn, ciddi risklərə baxmayaraq xalqının qurtuluş missiyasını cəsarətlə üzərinə götürən ulu öndər Heydər Əliyev illərin siyasi təcrübəsinə əsaslanaraq ölkəni xaos mühitindən çıxarmağı və ictimai tarazlığı təmin etməyi bacardı. Məhz 1993-cü ilin iyununda Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunun əsası qoyuldu. Ümummilli Lider ölkədə vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Ulu Öndərin sayəsində dövlətimizin, xalqımızın tarixi müqəddəratı həll olundu. Nəticədə qurtuluş savaşında irəliyə doğru dönüş başlandı.

Ümummilli lider Heydər Əliyev xalqımız, tariximiz qarşısında ən böyük xidməti budur ki, geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə dövlətçiliyimizi xilas etdi, Azərbaycanı parçalanıb yox olmaq təhlükəsindən qurtardı. Dövlətimizin, dövlətçiliyimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin təminatı qurtuluşudur.

Heydər Əliyevin qətiyyəti sayəsində Azərbaycan 1994-cü ilin oktyabr və 1995-ci ilin mart hadisələri zamanı ağır sınaqlardan uğurla çıxdı. Heydər Əliyev Azərbaycan xalqının inamını özünə qaytardı. Ölkədə sabitlik və əmin-amanlıq yaratdı. Bununla da sübut etdi ki, özünün qeyd etdiyi kimi, Azərbaycanın dövlət müstəqilliyi daimi, əbədi və dönməz olacaqdır...

Ümummilli Lider Azərbaycanın müharibə vəziyyətində olmasını nəzərə alaraq düşmənlərimizin və onların beynəlxalq havadarlarının gücünü, planlarını, Azərbaycanın düşdüyü vəziyyəti düzgün dəyərləndirdi. Ölkəni düşdüyü vəziyyətdən çıxarmaq məqsədilə atəşkəs rejiminə nail oldu. Xalqımızın adı və dili, qüdrətimiz bərpa olundu, milli varlığımız qorundu, reallaşmaqda olan etnik toqquşmalar ehtimalı aradan qaldırıldı. Ulu Öndərin zəhmətidir ki, Azərbaycan xalqı vətəndaş müharibəsinə düçar olmadı. Azərbaycan Respublikası dünya arenasında demokratik, hüquqi, dünyəvi dövlət kimi tanınmağa başladı. Heydər Əliyev zəkasının məhsulu olan Konstitusiyamız qəbul olundu. Nəticədə hakimiyyətin hər üç qolu demokratik dəyərlər üzərində quruldu, eyni zamanda xarici siyasətini bərabərlik və qarşılıqlı mənafe prinsipləri əsasında quran Azərbaycan Respublikası dünyanın bütün dövlətləri üçün açıq ölkəyə çevrildi. Bu gün Azərbaycan dünyanın aparıcı dövlətləri ilə ikitərəfli, üçtərəfli və çoxtərəfli münasibətlərə malikdi. Azərbaycan türk dünyası və islam dövlətləri ailəsinin bərabərhüquqlu üzvüdür.

Ulu Öndər dünyanın siyasi mənzərəsində Azərbaycanın yerini müəyyən etməklə yanaşı, ölkənin iqtisadi həyatını da dirçəltməyə başladı. Xarici iqtisadi sərmayələrin ölkəyə axını başladı. Ölkənin iqtisadi inkişafının təminatına çevrilən "Əsrin müqaviləsi" imzalandı. Əsrin ən böyük layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin əsası da məhz Ümummilli Liderin iştirakı ilə qoyuldu.

Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, sosial-siyasi həyatda tərəqqinin ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olması tarixi bir faktdır. Heydər Əliyev rəhbəri olduğu Azərbaycanı bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxartdı, müasir və müstəqil dövlətimizin etibarlı bünövrəsini yaratdı.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra orduda olan problemlər də öz müsbət həllini tapdı, vahid komandanlıq yarandı, qeyri-qanuni silahlı dəstələr ləğv olundu. Ordu quruculuğu prosesinin sürətlənməsi Azərbaycanın sülh danışıqlarında mövqelərini daha da möhkəmləndirdi. Heydər Əliyevin sayəsində orduda həyata keçirilən quruculuq işləri, struktur dəyişiklikləri, döyüş əməliyyatlarının vahid rəhbərlik altında planlaşdırılması, hissələrin hərb elminin tələblərinə uyğun idarə edilməsi, kadrların saflaşdırılması, qoşun hissələrinin təxribatçı və siyasi ünsürlərdən təmizlənməsi Azərbaycan Ordusunu keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına səbəb oldu.

Danılmaz həqiqətdir ki, Heydər Əliyev bugünkü Azərbaycanın inkişafının təməlində dayanan bir amildir. İstənilən sahənin inkişaf tarixinə nəzər saldıqda Heydər Əliyevin uğurlu siyasətinin, misilsiz xidmətlərinin şahidi oluruq. Onun ölkəmizə rəhbərlik etdiyi illər milli oyanış, tərəqqi, müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir. Məhz həmin illərdə siyasi sistemin möhkəmlənməsi, dövlətçilik ənənələrinin yaradılması, iqtisadi və sosial islahatların aparılması, dünya birliyinə inteqrasiya siyasətinin həyata keçirilməsi nəticəsində bu gün Azərbaycan uğurla inkişaf edən, özünü dünya birliyinə etibarlı tərəfdaş kimi təqdim edə bilən bir ölkəyə çevrilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev siyasi kursunu uğurla davam etdirməklə ölkəmizin demokratik imicinin möhkəmlənməsini təmin edir. Ölkə başçısı tərəfindən uğurla davam etdirilən inkişaf strategiyası nəticəsində əldə olunan nailiyyətlər Azərbaycanın gələcəkdə də daha böyük uğurlar qazanacağına zəmin yaradır.

Bütün bunlar onu göstərir ki, bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz nailiyyətlər, qazanılan uğurlar əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş siyasətin parlaq təcəssümüdür.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Torpaqlarımızı işğaldan azad edəcəyik!





**(Əvvəli 3-cü səhifədə)**

Arxamızdakı kəndlərdə yaşayan sakinləri rahat gördükcə bizlər də rahat oluruq, - deyə əsgər Abid Əliyev də öz fikrini bizimlə bölüşdü. - Sevinirik ki, insanların əkin-biçinləri ilə məşğul olmasında, rahat yaşamasında əməyimiz var. Atam da vaxtilə bu ərazidə gedən döyüşlərdə iştirak edib. Mən fəxr edirəm ki, atamın döyüşdüyü bu yerlərdə qürurla dayanıram. Hər dəfə müşahidə aparanda fikirləşirəm ki, tezliklə Böyük Qələbəni qazanaq və mən də tarix yazanların sırasında olum. Onun üçün də əsgər yoldaşlarımla birgə Ali Baş Komandanımızın yalnız "İrəli!" komandasını gözləyirik.

Əsgər Rza Məmmədov atası Yaşar kişinin Qarabağ döyüşlərində iştirak etməsindən fəxrlə danışdı: "Atam əsgər kimi Laçın istiqamətində gedən döyüşlərdə iştirak edib. O, xatirələrini bizimlə paylaşarkən Azərbaycan əsgərinin vətənpərvərliyinin yüksək olduğunu bildirib. Həmişə mənə deyərdi ki, biz müxtəlif bölgələrdə yaşaya bilərik. Amma hərbi xidmətdə olanda hamımız bir amal üçün yaşayırıq - Azərbaycanımızın ərazi bütövlüyünü bərpa etmək amalı ilə. Atamın sözlərini indi daha da dərindən dərk edirəm. Azərbaycanımızın müxtəlif rayonlarından gəlmiş dostlarımla birgə üzərində yaşadığımız bu torpaqları canımız bahasına da olsa qorumağa hazırıq."

Əsgərlər Elçin Məhəmmədov və Ceyhun Məmmədov ən gözəl işin Vətən torpaqlarını qorumaq olduğunu bildirdilər. Onlar bu gün dayandıqları, müdafiə etdikləri mövqelərdən döyüşə atılaraq, işğal altında olan torpaqları azad etməyin intizarındadırlar. İnanırıq ki, xalqımızın intizarına Ali Baş Komandanımızın əmri ilə Azərbaycan əsgəri son qoyacaq.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Nobel sülh mükafatı yubiley medalı Azərbaycanda





Vətənpərvərlik ümumxalq işidir. Cəmiyyətdə dövlət, dövlətçilik naminə bu mühüm missiyanın icraçısı olmaq hər birimizin vətəndaşlıq borcudur. Bu borcu fərdlər fərd kimi, təşkilatlar təşkilat kimi yerinə yetirirlər.

Azərbaycan Respublikasının Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı da respublikamızın ictimai həyatında fəal iştirak edir, gənc nəslin vətənpərvərlik ruhunda formalaşması kimi gərəkli missiyanı böyük sevgilərlə, məsuliyyətlə yerinə yetirir. Veteran tövsiyəsini dinləyən yeniyetmələr Vətənin müqəddəsliyini daha həssaslıqla dərk edirlər.

Fəaliyyəti müxtəlif missiyalı tədbirlərdə təmsil olunmaqla dövlətimizlə, dövlətçiliyimizlə bağlı olan tarixi fakt və hadisələrin təbliğatına yönəldilən təşkilatın məramı dövlətçilik, gənc nəslin vətənpərvərlik ruhunda, dövlətə, dövlətçiliyə sədaqət ruhunda formalaşmasıdır. Belə fəaliyyət həm də dövlətin gənclər siyasətinin tərkib hissəsi kimi gərəklidir.

Yeniyetmələrin və gənclərin vətənpərvərlik ruhunu yüksəltməyi, yeniyetmələrin hərbi xidmətə hazırlanmasında yaxından iştirak etməyi fəaliyyətinin başlıca qayəsi bilən bu təşkilat beynəlxalq təşkilatlarla da ikitərəfli, çoxtərəfli əlaqələrə malikdir. Dünyada möhkəm sülhün bərqərar olması istiqamətində həyata keçirilən beynəlxalq tədbirlərdə bəşəri mövqeyi dövlətimizin xarici siyasətindən qaynaqlanan təşkilatın rəsmiləri tolerant dövlət kimi tanınan Azərbaycan Respublikasını layiqincə təmsil edirlər. Belə tədbirlərdə faktlar əsasında məntiqli, inandırıcı çıxışlar həm təşkilat, həm də dövlət haqqında mövcud rəyləri formalaşdırır, dərinləşdirir ki, bu da ulu öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasətindən qaynaqlanır.

Bu günlərdə İsveçrənin Cenevrə şəhərində Sülh Əsgərləri Beynəlxalq Assosiasiyanın təşkilatçılığı ilə keçirilən “Sülh Əsgərlərinin Beynəlxalq Günü” tədbirində respublika veteranlar təşkilatının sədr müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru, ehtiyatda olan polkovnik Cəlil Xəlilov da iştirak edib.

Ehtiyatda olan polkovnik Cəlil Xəlilov konfransda müasir dünyada faşizm təzahürlərinin qarşısının alınması zərurətindən, sülhün təbliğinin gərəkliyindən və s. danışıb. Məruzədə Ermənistanın Azərbaycana qarşı elan etmədən müharibəyə başlaması səbəblərindən, nəticə etibarilə Azərbaycanın torpaqlarının 20 faizinin işğal olunmasından, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli istiqamətində BMT-nin 4 qətnaməsinin yerinə yetirilməməsindən və dünya dövlətlərinin bəzi məqamlarda ikili mövqeyindən söz açan ehtiyatda olan polkovnik Cəlil Xəlilov konfrans iştirakçılarının diqqətinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ulu öndər Heydər Əliyevin 95 illiyinə həsr olunmuş dövlət tədbirində dediyi bir fikri də çatdırıb: "Azərbaycan xalqı və Azərbaycan dövləti Azərbaycanın ərazisində ikinci erməni dövlətinin yaranmasına heç zaman imkan verməz".

Beynəlxalq terrorizmə, faşizmə və millətçiliyə qarşı mübarizəyə çağırış kimi səslənən fikirlər, təbii ki, sülhsevər dövlətlərin eyni mahiyyətli təşkilatlarının nümayəndələrini dərindən düşünməyə, bu istiqamətdə müştərək fəaliyyətin zəruriliyinə inandıracaqdır.

Müasir dünyada müharibələrin, lokal yaxud qeyri-lokal münaqişələrin, təcavüzlərin qarşısının alınmasına həsr edilən konfrans mahiyyət etibarilə gərəkli hesab edilməlidir. 2003-cü ildən BMT ilə birgə keçirilən bu tədbirdə dünya dövlətlərini bəşərilik üçün mübarizəyə səfərbər olmağın gərəkliyinə sövq edən müvafiq qərarlar qəbul edilib.

Ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxışında ATƏT-in Minsk Qrupunun fəaliyyətində dönüş yaradılması, Ermənistana qarşı ciddi sanksiyalar tətbiq edilməsi zərurətlərini də diqqətə çatdırıb.

“Sülh Əsgərlərinin Beynəlxalq Günü” tədbirinin iştirakçıları məruzəni maraqla dinləyib.

Başlıca məqsədi müxtəlif nümayəndə heyətlərinin birgə fəaliyyətini təmin etmək, beynəlxalq sülhün qorunmasında, xalqlar arasında münasibətlərin qarşılıqlı anlaşma və əməkdaşlıq əsasında qurulmasında yaxından iştirak etmək olan tədbirdə dünyada sülhün bərqərar olunmasında xidmətlərinə, ədalətin təntənəsi naminə fəaliyyətinə görə Azərbaycan Respublikasının Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov Nobel Sülh mükafatı yubiley medalı ilə təltif olunub. Sədr müavini bu medalın təşkilatın fəaliyyətinə verilən qiymət hesab etdiyini bildirib...

**"Azərbaycan Ordusu"**

# Ordumuzun 100 illiyinə həsr olunmuş tədbir

*Bakının Nərimanov rayonundakı 47 nömrəli tam orta məktəbdə "İnnovativ Təşəbbüslər" İctimai Birliyinin təşəbbüsü, Müdafiə və Təhsil nazirliklərinin dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində növbəti tədbir keçirildi.*



Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, məktəbin müəllim, şagird kollektivi və valideynlər iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri məktəbin direktoru Aytən Bağırova açaraq bildirdi ki, Azərbaycan qədim və dərin dövlətçilik tarixinə malikdir: "Tarixin hər bir dönəmində Azərbaycan fəxr edə biləcəyi bir dövlətə və dövlətçilik ənənəsinə malik olub. Bu şərəfli tarixi dövrlərdən biri də 1918-1920-ci illərdə cəmi 23 ay yaşayan, bununla belə, Şərqin ilk demokratik ölkəsi kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu zaman kəsiyidir".

"İnnovativ Təşəbbüslər" İctimai Birliyinin sədri Əşrəf Əhmədov qeyd etdi ki, Azərbaycan Xalq Cümhuriyyəti qurucularından Məhəmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Məmmədhəsən Hacınskinin, Nəriman bəy Nərimanbəylinin, Nəsib bəy Yusifbəylinin və ailələrinin başlarına gətirilən müsibətlər, məşəqqətli həyat yaşamaları onları bu yoldan bir an belə olsun döndərə bilməyib: "Onlar ömürlərinin sonuna kimi öz ideyalarına sadiq qalıblar. Günümüzün gəncləri-nin Vətən, torpaq, bayraq haqqındakı fikirləri, düşüncələri qürurvericidir. Bu gün onlar üçrəngli bayrağımızı əks etdirən qalstuklar taxaraq başlarını dik tutublar. İnanırıq ki, onlar gələcəkdə də Vətənimizi dünyada qürurla, başucalığıyla tanıdacaqlar".

Şagirdlər "Bayrağa sədaqət andı" içərək Azərbaycan Respublikasının bayrağını hər zaman uca tutacaqlarına, yüksəklərdə dalğalanması üçün mübarizə aparacaqlarına söz verdilər.

Azərbaycan Respublikasının Dövlət bayrağı Müdafiə Nazirliyinin əməkdaşı mayor Firavan Şərfalıyev tərəfindən məktəbin gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən müəllim Faiq Manafova təqdim edildi.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin dövlət qulluqçusu Zümrüd Səmədova bildirdi ki, 100 il əvvəl yaradılan Azərbaycan Xalq Cümhuriyyəti tariximizdə mühüm bir hadisə, əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımızın öz müstəqil dövlətinə sahib olması idi: "Ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının böyük əhəmiyyət kəsb etdiyini vurğulayaraq deyirdi: "Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılmasında və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi".

"28 may 1918-ci ildə yaranmış olan müstəqil Azərbaycan Xalq Cümhuriyyətində milli ordunun qurulması bir tərəfdən dövlət quruculuğunun mühüm tərkib hissəsi, digər tərəfdən də konkret tarixi şəraitdə ərazi bütövlüyünün qorunması üçün atılan zəruri addım olmuşdur. O dövrdə yeni yaradılacaq ordunun əsasını Müsəlman Korpusu təşkil edirdi. 1918-ci il iyunun 26-sı Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə Müsəlman Korpusu Əlahiddə Azərbaycan Korpusu adlandı. Bununla da milli ordu quruculuğunun əsası qoyuldu", - deyə Zümrüd Səmədova bildirdi.

"Bizim çox güclü ordumuz var", - deyən mayor Firavan Şərfalıyev bildirdi ki, gənclərimizin bu gün içdikləri bayrağa sədaqət andı gələcəkdə hərbi andla birləşərək daha dönməz olacaqdır. "Vətən və bayraq sevgisi qoşadır. Dünya dövlətləri arasında ancaq bizdə bayrağa sədaqət andı içilir. Bu and insanların milli ruhunun yaşarılığı deməkdir. Onu daim ucalarda tutub, müqəddəsliyinin keşiyində dayanmaq hər birimizin vətəndaşlıq borcudur."

Tədbir şagirdlərin Azərbaycan Xalq Cümhuriyyəti haqqında çıxışları, şeirlər və vətənpərvərlik yönümlü musiqi nömrələriylə başa çatdı.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
foto
çavuş
N.PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan dövləti və ordusu 100 il əvvəl təməli qoyulan dövlətin və ordunun layiqli varisləridir



**100** il bundan əvvəl təməli qoyulan və bu gün bir əsrlik yubileyini qeyd etdiyimiz Azərbaycan dövlətinin və Azərbaycan Ordusunun keçdiyi yollar xalqımızın, azərbaycanlıların taleyi ilə bağlı amillərlə doludur. 100 il əvvəl dövlətçiliyimizin müəyyən edilməsi, xalq olaraq milli-mənəvi dəyərlərimizin, sərhədlərimizin, dövlət atributlarımızın qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində yeni bir mərhələyə start verildi.

Azadlıq, suverenlik arzusu ilə yaşayan xalqımız müsəlman Şərqində ilk demokratik, dünyəvi dəyərlərə söykənən dövlət yarandığını dünyaya bəyan edərək müstəqillik istəyinə nail oldu. Cəmi 23 ay yaşayan Xalq Cümhuriyyəti tərəfindən bütün məhrumiyyətlərə baxmayaraq xalqımızın həyatında taleyüklü əhəmiyyətə malik qərarlar qəbul edildi və onların həyata keçirilməsi üçün mühüm addımlar atıldı. Həmin ərəfədə daxili və xarici düşmənlərdən qorunmaq məqsədilə atılan ən uğurlu addımlardan biri məhz Əlahiddə Azərbaycan Korpusunun yaradılması ilə Azərbaycan Ordusunun təməlinin qoyulması oldu.

Sovet imperiyasının süqutundan sonra yenidən müstəqilliyə qovuşan dövlətimiz və onun yaratdığı ordu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qeyd etdiyi kimi, 100 il əvvəl təməli qoyulmuş dövlətin və ordunun layiqli varisləridir. Bu gün xalqımız, dövlətimiz və ordumuz varislik ənənəsinə sadiq qalaraq müstəqilliyimizin qorunması yolunda əzmlə, inamla çalışır və daim irəliləyişə, yüksəlişə nail olur.

Ulu Öndər dövlətimizin müstəqilliyindən danışarkən deyirdi ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Təbii ki, bu şərəfli vəzifənin yerinə yetirilməsində ən böyük yük, missiya ordumuzun üzərinə düşür. Dövlətimizin diqqət və qayğısı, uğurlu, inamlı addımların nəticəsi olaraq günbəgün qüdrətlənən Azərbaycan Ordusu bu taleyüklü, müqəddəs vəzifənin - müstəqilliyimizin qorunması, əbədi olması kimi tapşırığın öhdəsindən gəlməyə tam qadirdir.

Düşünürəm ki, müstəqilliyimiz dövründə nail olduğumuz ən böyük nailiyyətlərdən biri məhz Ümummilli Liderimizin şah əsəri olan müasir, müstəqil Azərbaycan və onun ordusudur. O ordu ki, bu gün Ali Baş Komandan İlham Əliyevin cəsarətli addımları sayəsində regionun ən güclü ordusuna çevrilərək dünyanın qüdrətli orduları ilə bir sırada dayanmağa layiq olduğunu sübut edib. Dünya miqyasında keçirilən ən böyük tədbirlərdə iştirak edən hərbi qulluqçularımızın fəaliyyəti nəticəsində ölkəmiz, ordumuz haqqında deyilən xoş sözlər, hərbçilərimizin layiq görüldükləri mükafatlar da yuxarıda dediyimiz fikirlərin əyani sübutudur.

Ölkəmizin iqtisadi qüdrəti yüksəldikcə ordumuzun da qüdrətlənməsi istiqamətində böyük addımların atılması mümkün olur. Ordumuzun gücündən, qüdrətindən danışarkən bir çox tarixi anlarla yanaşı, yada salınmalı olan, ən çox xoş duyğular bəxş edən 1994-cü ilin Horadiz əməliyyatı və 2016-cı il aprelin ilk dekadasında həyata keçirilən əks-həmlə əməliyyatlarıdır. Hər iki tarixi məqamda ordumuzun qəhrəman oğulları xalqımıza qələbə sevincini yaşatdı ki, məhz bu səbəbdən həmin anların mənəvi və tarixi əhəmiyyəti daha böyükdür.

1994-cü ildə həyata keçirilən Horadiz əməliyyatı ölkəmizin hərb tarixinə, xarici və daxili düşmənlərimizin xəyanətinin səbəbi olan uğursuzluqlardan təngə gəlmiş xalqın Heydər Əliyevin ətrafında sıx birləşməsinin nəticəsi olaraq Qarabağ müharibəsində əldə etdiyimiz ilk böyük və qürurverici qələbə kimi həkk olundu. Bu uğurlu əməliyyat nəticəsində Füzuli rayonunun 20-dən çox kəndi, Horadiz qəsəbəsi düşmən işğalından azad olundu və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi ordumuzun nəzarətinə keçdi. Əməliyyat nəticəsində, həmçinin düşmənin çoxlu canlı qüvvəsi və hərbi texnikası məhv edildi, xeyli sayda silah-sursatı qənimət kimi ələ keçirildi. Horadiz əməliyyatı ümummilli lider Heydər Əliyevin birbaşa rəhbərliyi ilə həyata keçirildi. Ulu Öndərin böyük sərkərdəlik məharəti, qətiyyəti sayəsində Azərbaycan Ordusu bu uğura imza ataraq xalqımıza qələbə sevinci yaşatdı və qələbə əzminin yaşadığını xalqımıza sübut etdi.

Hərb tariximizin parlaq səhifələrindən biri və Qarabağ müharibəsi tarixində xüsusi yeri olan Horadiz əməliyyatından danışarkən, şanlı aprel döyüşlərini də yaddan çıxartmaq olmaz. Aprel döyüşlərindəki qələbəni, uğurlu Horadiz əməliyyatının davamı kimi dəyərləndirmək isə daha düzgün olardı. Hər ikisi qələbə ilə nəticələnən, biri-birinə bənzər, lakin həm də fərqlənən bu şanlı tarixi hadisələr ölkəmiz üçün gözəl nəticələrə səbəb oldu. Sevindirici haldır ki, hər iki tarixi anda Azərbaycan Ordusunun rolu əsaslardan biri oldu.

Xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra ulu öndər Heydər Əliyev ilk qətiyyətli qərarlarını məhz ordu quruculuğu istiqamətində qəbul etdi və bu gün də cənab İlham Əliyev tərəfindən inamla davam etdirilən uğurlu islahatların başlanğıcını qoydu. Dağınıq, müxtəlif qurumların marağına xidmət edən dəstələr, özünü müdafiə taborları ləğv edilərək, yerində vahid komandanlıqdan idarə olunan, elmi əsaslarla inkişaf etdirilən nizami ordu quruculuğuna start verildi. Ulu Öndərin tez-tez hərbi hissələrə, səngərlərə baş çəkməsi, cəbhə bölgəsinə səfərlər edərək əsgərlərlə görüşməsi ordumuzda ruh yüksəkliyinə səbəb oldu və ayrılıqlara son qoyan birliklə nəticələndi ki, bu da qələbənin əldə olunmasında mühüm rol oynayır.

Aprel döyüşlərini Horadiz əməliyyatından fərqləndirən amillərdən biri də 1994-cü ildə təməli qoyulan ruh yüksəkliyi, vahid komandanlıqla yanaşı, son illər yeni texnologiyaların tətbiqi ilə istehsal olunan silah və texnikaların silahlanmaya qəbul edilməsi, eləcə də hərbçilərimizin peşəkarlığı nəticəsində döyüş hazırlığı səviyyəsinin yüksəlməsi və ordumuzun qüdrətinin artması oldu. Bu döyüşlərdə ordumuzun şəxsi heyəti göstərdi ki, atəşkəs dövründə yaranmış sabitlik hədər getməmişdir. Döyüş ruhunu daha da artıran, mənəvi-psixoloji durumunu saflaşdıran, təlimlərdə və poliqonlarda nəzəri biliklərə və praktiki vərdişlərə yiyələnən, təcrübə qazanan ordumuz 1994-cü ildə olduğu kimi, yenə də ruh yüksəkliyi, həmrəyliklə qələbə əzminin daima yaşadığını hər kəsə sübut etdi.

Güclü dövlətin, xalqın, qətiyyətli Ali Baş Komandanın dəstəyini və dünyanın harasında yaşamasından asılı olmayaraq azərbaycanlıların həmrəyliyini hiss edən ordumuz daha qətiyyətlə, daha inamla irəli atıldı və düşmənə layiq olduğu yeri göstərdi. Ölkə Prezidentindən məktəbliyə qədər heç kimin bir qarış torpaq güzəştə getmək niyyətində olmadığını bilən Azərbaycan Ordusu göstərdi ki, düşmən heç vaxt işğal etdiyi Azərbaycan torpaqlarında rahat otura bilməyəcək. Mütləq mənada, ya xoşluqla çıxacaq, ya da aprel zərbələri kimi həmlələrə məruz qalaraq darmadağın edilməklə ərazilərimizdən qovulacaqdır. 2016-cı ilin aprel döyüşləri dediklərimizə əyani sübutdur. Son söz budur ki, ordumuz ərazi bütövlüyümüzü hərb yolu ilə bərpa etməyə israrlıdır, qadirdir və Ali Baş Komandanın bununla bağlı hər bir əmrinə hazırdır.

1994-cü il mayın 12-də cəbhədə rəsmən atəşkəs elan olunmasına baxmayaraq, erməni silahlı birləşmələri daima atəşkəs rejimini pozmaqda davam edir. Lakin səngərlərdə ayıq-sayıq dayanan Azərbaycan əsgərləri ön xətdə düşmənə layiqli cavab verərək, erməni təxribatlarının qarşısını qətiyyətlə almaqla yanaşı, döyüş qabiliyyətini artırmaq tədbirlərindən də geri qalmırlar. Hər gündən, hər dəqiqədən, hər saniyədən səmərəli istifadə edərək qələbə gününü yaxınlaşdırmaq üçün döyüş hazırlığını artırmaqla müqəddəs borcunun icrasına hazırlaşırlar.

Fikrimcə, Azərbaycan Ordusunun yaradılmasının 100 illiyini qeyd etməyə hazırlaşdığımız ərəfədə bir daha son illər əldə etdiyimiz uğurlar və bu uğurların parlaq nəticələri olan "Aprel zəfəri" barədə bəzi məqamlara diqqət yetirmək yerinə düşərdi. Çünki hər ildönümü, yubiley bir növ əldə edilən uğurların, qələbələrin, nailiyyətlərin hesabat nöqtəsi və yeni zirvələrə açılan yolun başlanğıcıdır.

2016-cı ilin martın ortalarından başlayaraq Ermənistan qoşunları iriçaplı silahlardan, qumbaraatan, minaatan, eləcə də kalibri 120 mm-dən yuxarı olan artilleriya sistemlərindən istifadə etməklə təxribatlara başladı. Bu təxribatların qarşısının alınması, cəbhəyanı məntəqələrdə yaşayan insanların təhlükəsizliyini təmin etmək məqsədilə 2016-cı ilin aprelində Azərbaycan Ordusu ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qətiyyətli tədbirlərə əl atdı. Ordumuz əks-həmlə əməliyyatı keçirərək düşmənə öz gücünü, qüdrətini göstərməklə ona uzun zaman unudulmayacaq dərs verdi. Nəticədə ağır zərbələr alan düşmən yaşayış məntəqələrimiz üçün təhlükə yaradan mövqelərdən geri çəkilməyə məcbur edildi.

Şəxsi heyətin döyüşlərdə son dövrlər alınmış yeni, müasir silahların tətbiqi zamanı hərbçilərimizin onlardan istifadə bacarığını, silahların zərbə gücünü, effektivliyini sınadıq, həmçinin şahidi olduq ki, ölümsaçan silahın zəhmi əsgərlərimizi bir an sarsıtmadı, əksinə, onların bacarığı sayəsində bu silahlar düşmən üçün daha da qorxunc və dağıdıcı oldu.

Hərbçilərimizin ancaq şəhid olaraq tərk etdiyi həmin döyüşlərdən çıxarılan digər və ən vacib nəticə budur ki, döyüşlər ərzində hər kəs yüksək nizam-intizam, hərbi anda sədaqət nümayiş etdirərək sona qədər savaşdı və bir nəfər də olsun hərbi qulluqçu döyüş mövqeyini tərk etmədi, silahı son ana qədər yerə qoymadı. Həmin günlərdə hərbi kollektivlərdə münasibətlərin yüksək səviyyədə, həqiqi dostluq, döyüş yoldaşlığı, qardaşlıq, bir ailə kimi səmimi olması da aprel döyüşlərinin xüsusiyyətlərindən biri oldu. Aprel döyüşləri göstərdi ki, bizim əsgərin igidliyi, qəhrəmanlığı, şücaəti sərhədsizdir və şəxsi heyət nəinki torpaqlarımızı son damla qanınadək müdafiə etməyə, hətta irəli atılaraq, düşmən sədlərini yararaq irəliləmək və ərazi bütövlüyümüzü təmin etmək əmrinə hazırdır və qadirdir.

Aprel döyüşlərini səciyyələndirən müsbət amillərdən biri də ehtiyatların vaxtında çatdırılması ilə döyüş təchizatının durmadan təmin olunması, yerli icra orqanları və ictimaiyyətlə əlaqələrin səmərəli təşkilidir ki, bu da əməliyyatlarda ordumuzun manevrlərini sürətləndirdi, gözlənilməzliyi və qəfil zərbələrin endirilməsini təmin etdi, həmçinin güc və qüvvələrin tətbiqi imkanlarını qat-qat artırdı. Yuxarıda qeyd edilən və ordu rəhbərliyi tərəfindən uğurla yerinə yetirilən bu tədbirlər, eləcə də əməliyyatda iştirak edən rəhbər heyətin, zabitlərin, komandirlərin peşəkarlığı, idarəetmə qabiliyyəti, digər bölmələrlə uzlaşmada əlaqəli fəaliyyəti də müasir döyüş əməliyyatlarında uğur qazanmanı təmin edən aparıcı amillərdəndir.

Məhz bütün yuxarıda sadaladığımız və bu yazıda toxuna bilmədiyimiz amillərin nəticəsidir ki, erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qaldı. Bizdə olan məlumatlara görə, 320-dən artıq düşmən məhv edildi və 500-dən artıq erməni hərbi qulluqçusu yaralandı. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, düşmənin Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri məhv edildi. Bir neçə istiqamətdə yolların nəzarətdə saxlanılması imkanı əldə edildi.

Bu gün həmin anlardan 2 il keçdikdən sonra yenə də əminliklə deyə bilərik ki, ixtiyarında olan silah, hərbi texnikanın cüzi bir hissəsindən və yalnız ön xətt bölmələrinin canlı qüvvəsinin bir qismindən yararlanaraq düşmənə üstünlüyünü sübut edərək bu şanlı qələbəyə imza atan ordumuzun bütün şəxsi heyəti göstərilən etimadı daima doğrultmağa, torpaqlarımızı işğaldan azad edərək ərazi bütövlüyümüzün təmin edilməsi kimi müqəddəs vəzifəsini şərəflə yerinə yetirməyə hazırdır.

Sonda bütün deyilənlərə yekun vuraraq demək olar ki, aprel döyüşlərində əldə etdiyimiz qələbə Ali Baş Komandanın, dövlətimizin, hökumətimizin Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğının hədər getmədiyinə ən bariz nümunədir. Hərbçilərimiz əməli ilə göstərdi ki, Vətənimizin, xalqımızın, ölkə rəhbərliyinin ordumuza etimad etməsi, ordumuzu sevməsi hədər deyil. İnanırıq ki, ordumuzun şəxsi heyəti qələbə əzmi ilə xidmətinə davam edərək xalqımızı daha çox qələbələrlə sevindirəcəkdir. Bu isə Azərbaycan Ordusunun dövlət qayğısına, xalq sevgisinə ən düzgün cavabı olmalıdır.

**İsa ELDAROĞLU,**
**hərbi jurnalist**

*Müdafiə Nazirliyi və Mətbuat Şurasının birgə təşkil etdiyi "Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümünə həsr olunmuş "Hər birimiz Vətənə xidmət edirik" mövzusundakı yazı müsabiqəsinə təqdim edilir*




*Ordenli igidlərimiz*

# Hərb Tarixi Muzeyində "El qəhrəmanı" adlı tədbir keçirildi



*Azərbaycan Hərb Tarixi Muzeyində "Azərbaycan Bayrağı" ordenli kəşfiyyatçı Ülfət Kərimovun anım gününə həsr olunmuş "El qəhrəmanı" adlı tədbir keçirildi.*

Tədbirdə Müdafiə Nazirliyinin idarə və təşkilatlarının, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin və hərbi hissələrin əməkdaşları, Respublika Veteranlar Təşkilatının, ictimaiyyətin nümayəndələri, həmçinin kəşfiyyatçı Ülfət Kərimovun ailə üzvləri və döyüş yoldaşları iştirak etdilər.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxış edərək qeyd etdi ki, Ülfət Kərimovun qəhrəmanlığını sözlə ifadə etmək çətindir: "Əsrlər boyu zəngin təbii sərvətlərə malik olan yurdumuz yadellilərin işğalçı siyasətinə məruz qalıb. Hiyləgər düşmənlərə boyun əyməyən oğul və qızlarımız onlara qarşı mübarizə aparıblar. Belə qəhrəman oğullarımızdan biri də Qarabağ müharibəsi iştirakçısı, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunan şəhid Ülfət Kərimovdur. Kəlbəcər rayonunda anadan olan qəhrəmanımız orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılır. Sovet ordusunda xidmətini başa vurduqdan sonra Azərbaycana qayıdan igidimiz indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə daxil olur. Vətənin dar günündə təhsilini yarımçıq qoyan qəhrəmanımız döyüşçülərin sırasına könüllü şəkildə qatılır. Erməni işğalçılarına qarşı gedən ağır döyüşlərdə Ülfət cəsurluğu ilə seçilir".

Ü.Kərimovun qardaşı və döyüş yoldaşı Zöhrab Kərimov tədbir iştirakçılarına bildirdi ki, Ülfət Kəlbəcər rayonunun Ağdaban kəndi uğrunda gedən qeyri-bərabər döyüşlər zamanı əhalinin yaşayış məntəqəsini sağ-salamat tərk etməsinə nail olub. Döyüşdə yaralanan silahdaşımız son nəfəsində də sayıqlığını itirməyib, əlində qumbara PDM-in altına tullanıb, onu partladaraq qəhrəmancasına həlak olub. Ülfət Vətənin müdafiəsində göstərdiyi misilsiz qəhrəmanlığa görə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub.

Tanınmış kəşfiyyatçının ailə üzvləri və döyüş yoldaşları qəhrəmanın həyatı, döyüş yolu və müharibə illərində regionda baş verən hadisələr haqqında öz xatirələrini danışdılar.

Çıxışlardan sonra tədbir iştirakçılarına xalqımızın qəhrəmanı Ülfət Kərimova həsr olunmuş "El qəhrəmanı" adlı qısametrajlı sənədli film nümayiş etdirildi.

Tədbir Kəlbəcər rayon tam orta məktəbin şagirdlərinin Vətənə həsr olunmuş şeir kompozisiyası və mahnı ifası ilə başa çatdı.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Vüsal HƏMİDOVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə Silahlı Qüvvələri 130 PKK terrorçusunu məhv edib



Türkiyə Silahlı Qüvvələrinin quru qoşunları Şimali İraqa daxil olaraq 20 kilometr irəliləyib. Bölgədə piyada qoşunları antiterror əməliyyatı aparır. Hərbi əməliyyatlar zamanı 130 PKK terrorçusu məhv edilib.

Türkiyənin Hakkari vilayətindəki hərbi birliklər Şimali İraqa göndərilib. Əməliyyat çərçivəsində pilotsuz uçuş aparatları ilə terrorçulara məxsus hədəflər vurulub.

Türkiyənin Baş naziri Binəli Yıldırım açıqlamasında bildirib ki, silahlı qüvvələr Fərat çayının qərbində 250 kilometrlik ərazini terrorçulardan təmizləyib. Baş nazir, eyni zamanda, Fərat çayının cənubunda terrorçulara qarşı əməliyyatın aparıldığını bildirib. B.Yıldırımın sözlərinə görə, hazırda Şimali İraqda türk ordusunun 11 qərargahı təşkil olunub.

Türkiyənin Daxili İşlər naziri Süleyman Soylu isə bildirib ki, silahlı qüvvələrin apardığı əməliyyat nəticəsində PKK-nın əsas qərargahı hesab olunan Qəndil Türkiyə üçün təhlükəsiz məkana çevriləcək.

## Qvatemalada vulkan püskürməsi nəticəsində ölənlərin sayı 99-a çatıb



Qvatemalada Fueqo vulkanının püskürməsi nəticəsində ölənlərin sayı 99-a çatıb. "Reuters" agentliyi bu məlumatı ölkənin hökumət orqanlarına istinadla yayıb.

Qvatemalada 190 nəfərdən çox insan itkin düşüb. Ölkədə üçgünlük matəm elan edilib.

## Bağdad yaxınlığında törədilən partlayış nəticəsində 20 nəfər ölüb



Bağdad yaxınlığında törədilən partlayış nəticəsində 20 nəfər ölüb, yüzlərlə insan yaralanıb. Bu barədə "Ayn Al Iraq News" portalı məlumat yayıb.

Bağdad Təhlükəsizlik Qüvvələri İnformasiya Mərkəzinin məlumatına görə, partlayış nəticəsində 14 yaşayış evi tamamilə dağılıb. Onların qalıqları altında insanlar ola bilər. Hadisə yerinə xilasedicilər və təcili yardım briqadaları cəlb edilib.

## İran sərhədində silahlı toqquşma baş verib



İranın Qərbi Azərbaycan Vilayətində Sərdəşt bölgəsində bir qrup terrorçu ilə sərhəd xidmətinin əsgərləri arasında silahlı toqquşma baş verib.

Gecə saatlarında baş verən insidentdə iki nəfər sərhədçi həlak olub. İlkin məlumatlara görə, silahlı qruplaşma qanunsuz olaraq İranın dövlət sərhədini pozaraq ölkəyə daxil olmağa çalışıblar. Lakin sərhədi pozarkən sərhədçilərin müqavimətinə rast gəliblər.

Hadisə yerinə əlavə qüvvələr cəlb olunub. Həlak olanların cəsədləri ekspertizaya göndərilib. Sərhəd pozanların kimliyi və hansi terror qruplaşmasına mənsubiyyəti və məqsədləri araşdırılır.

## Əfqanıstanda seçicilərin qeydiyyat mərkəzində partlayış baş verib




Əfqanıstanın şimal-şərqində seçicilərin qeydiyyat mərkəzində partlayış baş verib.

Hadisə Baqlan vilayətində qeydə alınıb. Şahidlər vilayətin administrativ mərkəzinin rayonlarından birində mina partladığını deyiblər. Partlayış nəticəsində ölənlər və yaralananlar olduğu bildirilir.

Hadisənin təfərrüatları barədə hələlik heç bir məlumat verilmir.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*8 iyun 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 85 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan, İcevan rayonunun Paravakar kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Quşçu Ayrım, Məzəm kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Abdinli, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Hərbi Dəniz Qüvvələrinin praktiki təlim məşqləri keçirilib



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məşqlərin ilkin mərhələsində gəmi qruplarının, hissə və bölmələrin cəmləşmə rayonlarına çıxışı, şəxsi heyətin üzməyə hazırlanması və döyüş uzlaşması tədbirləri icra olunub. Sonrakı mərhələlərdə gəmilər şərti düşmənin üzən minaları, dəniz və hava hədəflərini dəqiq atəşlə məhv ediblər.

Təlim məşqlərinə cəlb olunan şəxsi heyət qarşısına qoyulan bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

# Milli Qəhrəman Mehdi Abbasova həsr edilən "Xüsusi təyinatlı" filmi təqdim olunub

İsmayıllıda Mədəniyyət Nazirliyinin "Yaddaş" studiyası tərəfindən çəkilən, Azərbaycanın Milli Qəhrəmanı Mehdi Abbasova həsr edilən "Xüsusi təyinatlı" sənədli filminin təqdimatı olub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, rayon rəhbərliyinin, ziyalıların, gənclərin qatıldıqları tədbirin iştirakçıları əvvəlcə Şəhidlər xiyabanını ziyarət ediblər.

Şəhər Mədəniyyət Mərkəzində təşkil olunan təqdimat mərasimində çıxış edən Mədəniyyət Nazirliyinin məsul işçisi Almaz Sultanova filmin çəkilişindən, Azərbaycanın azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Vətən övladlarının xatirəsinə göstərilən ehtiramdan danışıb.

Sonra "Xüsusi təyinatlı" filmi nümayiş etdirilib.

Qeyd edək ki, filmin qəhrəmanı Mehdi Abbasov Qərbi Azərbaycanda dünyaya gəlib. Orta və ali təhsilini Qazaxıstanda başa vurub. Azərbaycanda isə şəhidlik zirvəsinə ucalıb.

Təqdimat mərasimində çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Sevil Əhmədova "Xüsusi təyinatlı" filminin, eləcə də bu mövzuda çəkilən ekran əsərlərinin Milli qəhrəmanlarımızın xatirəsinin əbədiləşdirilməsində, gənclərin vətənpərvərlik tərbiyəsində əhəmiyyətindən danışıb.

Sonda Mədəniyyət Mərkəzinin foyesində təşkil edilən "Şəhidlər ölməz, Vətən bölünməz" adlı sərgi ilə tanışlıq olub.

# MOİK təmsilçisi dünya çempionu oldu

*Beynəlxalq Hərbi İdman Şurasının (CISM) təşkilatçılığı ilə mayın 30-dan iyunun 6-dək İsveçrənin Tun şəhərində hərbi atıcılıq üzrə 50-ci dünya çempionatı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, çempionatda ölkəmizi Mərkəzi Ordu İdman Klubunun 2 idmançısı baş leytenant Ruslan Lunev və Nigar Nəsirova təmsil ediblər.

Yarışların tapançadan 25 metr məsafədən atış növündə iştirak edən təmsilçimiz Ruslan Lunev Estoniya və Çindən olan rəqiblərini üstələyərək qızıl medala layiq görülüb və dünya çempionu adını qazanıb.




# Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində növbəti qanlı insident baş verib.

Mayın 19-da Ağdərə yaşayış məntəqəsi ərazisində yerləşdirilən düşmən ordusunun 5-ci dağ atıcı alayının döyüş mövqeyində əsgər atəş açaraq parolu yaddan çıxaran post başçısı Armen Stepanyanı yaralayıb.

Hərbi hissədə ilkin olaraq hadisəni "ya özünü vurub", yaxud "döyüşdə yaralanma" kimi qələmə verməyə çalışıblar. Lakin sonradan A.Stepanyan postda başqa əsgər tərəfindən güllələndiyini etiraf edib.

Hərbi polis faktla bağlı araşdırma aparır.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun hərbçilərinin özbaşınalığı, intizamsızlığı, sərxoş vəziyyətdə əxlaqsız davranışı və digər səbəblərdən hərbi qulluqçularla mülki şəxslər arasında tez-tez insident baş verir.

Bu günlərdə belə insidentlərdən biri Ağdərə sakini Rudik Hunanyanla hərbi hissələrdən birində xidmət edən Aqram Arakelyan və Razmik Hovakimyan arasında baş tutub. Hər iki hərbçi yaxınlıqdakı ərzaq məhsulları mağazasının sahibi R.Hunanyandan içki və digər qida məhsullarını uzun müddətə nisyə götürərək pulunu ödəyəcəklərinə söz versələr də, sonradan vədlərinə xilaf çıxıblar.

Bir neçə dəfə məsələ ilə bağlı komandanlığa müraciət etməsinə baxmayaraq, R.Hunanyanın şikayətinə məhəl qoyan olmayıb.

Son dəfə isə mayın 28-də hərbçilər A.Arakelyan və R.Hovakimyan sərxoş vəziyyətdə R.Hunanyanı döyərək ona bədən xəsarətləri yetiriblər.

Hazırda hüquq mühafizə orqanları faktla bağlı araşdırma aparırlar.

* * *

İşğal olunmuş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində xidmət edən əsgərlər tibb məntəqəsində dava salıblar.

Ağdərə hospitalı rəisinin verdiyi məlumata görə, sanitar maşının sürücüləri Armen Şahverdyan və Armen Qnunyan əlbir olaraq aşpaz Marat Gazaryan və Qaqik Xaruntsu döyüblər.

Hərbi polisdən nümayəndə gəldikdən sonra davaya son qoyulub. Xəsarət alanlara tibbi yardım göstərilib, dava iştirakçılarının və şahidlərin izahatları alınıb.

On sutka müddətinə hauptvaxta salınan hər iki sürücü barəsində xidməti araşdırma aparılır.

* * *

Bu günlərdə Ermənistan ordusunun vəziyyəti barədə daha bir məsələ internetdə qızğın müzakirə mövzusuna çevrilib.

Belə ki, Ermənistanın Tavuş vilayətinin Aygevit yaşayış məntəqəsinin sakini Hamlet Matinyan öz facebook səhifəsində ordudakı vəziyyətdən danışarkən, yazıb ki, əsgərlər çatışmadığından kənd əhalisini zorla Hadrutda yerləşən bölmələrin postlarında növbə çəkməyə göndərirlər.

Sosial şəbəkə istifadəçiləri tərəfindən birmənalı qarşılanmayan bu məsələyə Ermənistan Müdafiə Nazirliyi rəsmi reaksiya verməyib.

Məsələni sosial şəbəkədə müzakirə etməmək barədə söhbətlər aparmaq məqsədilə "emisarların" adı çəkilən yaşayış məntəqələrinə gəldiyi də məlum olub.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# XM25 qumbaraatanı



XM25 qumbaraatanı Almaniyanın “Heckler & Koch” və ABŞ-ın “Alliant Techsystems” şirkətləri tərəfindən XM29 OISW sistemi əsasında hazırlanıb. İstehsalçıların verdiyi məlumata görə, "ağıllı" adlandırılan proqramlaşdırılmış XM25 qumbaraatanı hərəkət edən hədəflərə, binalarda, səngərlərdə və ağacların arxasında gizlənən düşmənin canlı qüvvəsinə qarşı atəş açmaq üçün çox effektli sayılır. Döyüş sursatı bir dəfə atəş açmaqla 500 metrlik məsafədə yerləşən hədəfi dəqiqliklə vurmağa qadirdir.

Qumbaranın partlayışı zamanı canlı qüvvə 6 metrə qədər radiusda məhv edilir. Qumbaraatanın uzunluğu 737 mm, patronu 25x40 mm, kalibri 25 mm ilkin sürəti saniyədə 210 metr, maksimal uzaqlığı 1000 metr, çəkisi 6,35 kiloqram, bir qumbaranın çəkisi isə 270 qramdır. Silahın özü titandan və kompozit materialdan hazırlanıb. Silah elektron idarə olunur. Bu da ona mərminin birbaşa havada düşmənin gizləndiyi sığınacağın üstündə partlamağa imkan verir. Onun əsas sistemi hesablayıcı blokdur. Hazırda bu silah qaynar nöqtələrdə sınaqdan keçməkdədir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

*Gənclər siyasəti*

# Vətən sevgisi ən ülvi hissdir

*Sağlam gənclik xalqın parlaq gələcəyinin təminatıdır. Hər bir millətin tərəqqisi onun gələcəyinin necə qurulmasından asılıdır. Gələcəyi isə gənclər qurur. Ümummilli liderimiz Heydər Əliyev daima gənclərə qayğıyla yanaşaraq onların milli və vətənpərvər ruhda tərbiyəsinə xüsusi önəm verirdi. Ulu Öndərin gənclərlə görüşlərinin birində dediyi "Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir. Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir" kəlamlarını xatırlayıram.*

Ağadadaş Süleymanovla Neftçala rayonuna ezam olunduğum vaxt tanış oldum. Astanlı kənd orta məktəbində təhsil alır. Səkkizinci sinifdə oxuyur. Rayon üzrə keçirilən fənlər müsabiqəsində yaşıdları arasında I yerə layiq görülüb. Bu gəncin bütün fənlərdən əla qiymətlər alması, orduya olan xüsusi sevgisi məndə könül xoşluğu yaratdı. Vətənpərvərliyi, maraqlı fikirləri, gələcəklə bağlı planları məni də qürurlandırdı. Müsahibim deyir ki, müqəddəs Vətən sevgisi bütün vücudunu sarıb-sarmalayıb. "Vətənimi sözlə, miqdarla ifadə olunmayacaq dərəcədə, hədsiz məhəbbətlə sevirəm. Onun göylərində əcdadlarımızın, şəhidlərimizin ruhları dolaşır. Bu gün mənim müqəddəs borcum dərslərimi yaxşı oxuyaraq gələcəkdə Vətənimə, onun çiçəklənməsinə xidmət etməkdir. Xüsusən indiki vaxtda, torpaqlarımızın 20 faizinin işğalda olduğu bir zamanda Vətən bizdən daha böyük hünərlər gözləyir. Vətəni qorumaq, onu inkişaf etdirmək və çiçəkləndirmək biz gənclərin vətəndaşlıq borcudur".



Babası keçmiş Sovet ordusunun zabiti olub. Uzun illər gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edib. Ağadadaşın Vətən sevgisinin, ordu haqqındakı fikirlərinin də mənbəyi məhz babasıdır. Atası ehtiyatda olan baş leytenantdır. Əmilərindən biri Murov istiqamətində gedən döyüşlərdə vuruşub. Qarabağ müharibəsi veteranıdı. Bu gün də Vətənin xidmətindədir. Kiçik əmisi müddətli həqiqi hərbi xidmətini Naxçıvanda keçib.

Ağadadaş deyir ki, ailəmiz bir yerə toplananda vətənpərvərlikdən, ordumuzun günü-gündən güclənməsindən danışılır. "Babam özünü oğullarını vətənpərvər ruhda tərbiyə etdiyinə və onların öz Vətənlərində müqəddəs borclarını yerinə yetirdiklərinə görə dünyanın ən xoşbəxt insanı adlandırır. Ordumuzda yaradılan şəraitin heç Sovet ordusunda da olmadığını deyir. Atam ordumuzun regionun ən güclü ordusu olmasıyla qürurlanır, əmim müharibə dövrü ilə bağlı xatirələrindən söz açır. Naxçıvanda qulluq edən kiçik əmim əsgər dostluğundan danışır, səngər dostlarını xatırlayır". Bu söhbətlər Ağadadaşın da, qardaşı Vaqifin də, əmisi oğlu Ramazanın da ən çox sevdiyi ortamdır.

Vətənpərvər yeniyetmə aprel döyüşlərində ordumuzun qazandığı zəfərdən, Lələtəpədən, Bayraqtəpədən qürurla söz açdı. "İnanıram ki, çox yaxında ordumuz xalqımızı Qələbə xəbəriylə müjdələyəcək. Mən müqəddəs borcumu Vətənimin sərhədlərinin keşiyində dayanaraq ödəyəcəm".

Ağadadaş Süleymanovun timsalında yeniyetmələrimizin Vətən sevgisinin, Vətənə bağlılığının, Vətənin müqəddəsliyinin nə olduğunu tam anlamı ilə dərk etdiklərinin şahidi oldum. Sabahın gəncləri Vətənə dərin sevgilərlə yaşayırlar. Bu vətənpərvərlikdir. Həm də olduqca gərəkli vətənpərvərlik...

“Fəxr edirəm ki, mən də dövlətin gənclər siyasətinin iştirakçısıyam...”, - deyir Ağadadaş...

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Cəfərov Zaur Rüstəm oğluna, əsgər Məmmədov Novruz İnqilab oğluna, əsgər İsmayılov İxtiyar Bəxtiyar oğluna verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 396
Nüsxə 3525